**UDC:** 31.
**LBC:** 60.52.; 60.54
**MJ №** 488
10.33864/2617-751X.2026.v9.i2.509-520

# SOCIO-PSYCHOLOGICAL ANALYSIS AND ASSESSMENT OF PROBLEMS THAT MAY ARISE IN THE IMPLEMENTATION OF THE LOCAL SELF-GOVERNMENT MODEL IN THE CONTEXT OF PUBLIC ADMINISTRATION

**Orkhan Aliyev***

**Abstract.** The article analyzes the shortcomings that may arise in the implementation of the local self-government mechanism on the public administration platform, as well as the problems that arise from a polycentric perspective. Thus, in our modern world, the development factors of democratic values in the context of public administration have synergistic properties. The establishment of these features in the structure of local self-government carries essential implications. That is why the problems that may arise in the local self-government model should be carefully examined and evaluated in the segment of objective trends. The article uses social, philosophical, psychological and other criteria to analyze the problems, and analyzes the existing problems and shortcomings according to the main classification stages.

**Keywords:** local self-government, corruption, disinformation, subconscious, metamodel, illegal

---

* Master's student at Baku Business University; Baku, Azerbaijan
E-mail: o.eliyev11124@gmail.com
https://orcid.org/0009-0008-2637-0313

**To cite this article:** Aliyev, O. [2026]. SOCIO-PSYCHOLOGICAL ANALYSIS AND ASSESSMENT OF PROBLEMS THAT MAY ARISE IN THE IMPLEMENTATION OF THE LOCAL SELF-GOVERNMENT MODEL IN THE CONTEXT OF PUBLIC ADMINISTRATION. *“Metafizika” journal, 9*(2), pp.509-520.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.509-520
***Article history:***
**Received**: 13.02.2026 **Revised**: 16.03.2026 **Accepted**: 04.05.2026 **Published**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 31.
**ББК:** 60.52.; 60.54
**MJ №** 488
10.33864/2617-751X.2026.v9.i2.509-520

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ И ОЦЕНКА ПРОБЛЕМ, КОТОРЫЕ МОГУТ ВОЗНИКНУТЬ ПРИ РЕАЛИЗАЦИИ МОДЕЛИ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ В КОНТЕКСТЕ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

**Орхан Алиев***

**Абстракт.** В статье анализируются недостатки, которые могут возникнуть при реализации механизма местного самоуправления на платформе государственного управления, а также проблемы, возникающие с полицентрической точки зрения. Таким образом, в нашем современном мире факторы развития демократических ценностей в контексте государственного управления обладают синергетическими свойствами. Формирование этих свойств в структуре местного самоуправления имеет существенные последствия. Именно поэтому проблемы, которые могут возникнуть в модели местного самоуправления, следует тщательно изучать и оценивать в контексте объективных тенденций. В статье для анализа проблем используются социально-философские, психологические и другие критерии, а существующие проблемы и недостатки анализируются в соответствии с основными классификационными этапами.

**Ключевые слова:** местное самоуправление, коррупция, дезинформация, подсознание, метамодель, незаконность

---

* Магистрант Бакинского Университета Бизнеса; Баку, Азербайджан
E-mail: o.eliyev11124@gmail.com
https://orcid.org/0009-0008-2637-0313

**Цитировать статью:** Алиев, О. [2026]. СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ И ОЦЕНКА ПРОБЛЕМ, КОТОРЫЕ МОГУТ ВОЗНИКНУТЬ ПРИ РЕАЛИЗАЦИИ МОДЕЛИ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ В КОНТЕКСТЕ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ. *Журнал «Metafizika»*, *9*(2), с.509-520.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.509-520
***История статьи:***
**Поступила**: 13.02.2026 **Переработана**: 16.03.2026 **Принята**: 04.05.2026 **Опубликована**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 31.
**KBT:** 60.52.; 60.54
**MJ №** 488
10.33864/2617-751X.2026.v9.i2.509-520

# DÖVLƏT İDARƏÇİLİYİ KONYUNKTURASINDA YERLİ ÖZÜNÜİDARƏETMƏ MODELİNİN TƏTBİQİNDƏ YARANA BİLƏCƏK PROBLEMLƏRİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Orxan Əliyev***

**Abstrakt.** Məqalədə dövlət idarəçiliyi platformasında, yerli özünüidarəçilik mexanizminin həyata keçirilməsində yarana biləcək çatışmazlıq, o cümlədən meydana çıxan problemlər polisentrik prizmadan analiz edilmişdir. Belə ki, çağdaş dünyamızda dövlət idarəçiliyi kontekstində demokratik dəyərlərin inkişaf faktorları sinenrgetik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərin yerli özünüidarəçilik strukturunda qurulması isə zəruri anlamları ehtiva edir. Məhz buna görə yerli özünüidarəçilik modelində yarana biləcək problemlər diqqətlə araşdırılmalı və obyektiv tendensiyalar seqmentində qiymətləndirilməlidir. Məqalədə problemlərin təhlili istiqamətində sosial, fəlsəfi, psixoloji və digər meyarlı istinadlardan istifadə edilmiş, mövcud problem və çatışmazlıqların əsas təsnifati mərhələlər üzrə analizi həyata keçirilmişdir.

**Açar sözlər:** yerli özünüidarəetmə, korrupsiya, dezinformasiya, təhtəlşüur, metamodel, qeyri-leqal

---

* Bakı Biznes Universitetinin magistrantı, Dövlət Sərhəd Xidmətinin ehtiyatda olan zabiti-mayor; Bakı, Azərbaycan
E-mail: o.eliyev11124@gmail.com
https://orcid.org/0009-0008-2637-0313
**Məqaləyə istinad:** Əliyev, O. [2026]. DÖVLƏT İDARƏÇİLİYİ KONYUKTURASINDA YERLİ ÖZÜNÜİDARƏETMƏ MODELİNİN TƏTBİQİNDƏ YARANA BİLƏCƏK PROBLEMLƏRİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ. *"Metafizika" jurnalı, 9*(2), səh.509-520.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.509-520
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 13.02.2026 **Yenidən baxılıb**: 16.03.2026 **Təsdiqlənib**: 04.05.2026 **Dərc olunub**: 15.06.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

İnsanın yaranış və inkişaf formasiyasını tədqiq edən əksər elm sahələrində fəlsəfi-teoloji dualizm yanaşması həmişə başlıca meyarlardan biri kimi dəyərləndirilmişdir. Fərd olaraq dərinliklərimizdə təşəkkül tapmış hiss və düşüncələr, davranışların heç də zahiri görünüşlə, ritorik üslub və ifadələrlə eynilik təşkil etməməsi bir çox filosof və mütəfəkkirlərin əsərlərində genişmiqyaslı şərh obyekti olmuşdur. Sakral kitablarımızda isə bu anlam daha dəqiq bir konkretliklə əks olunmuşdur. Belə ki, xristianlığın müqəddəs kitabı olan İncildə Həzrəti İsa öz şagirdlərinə deyir: "Sizə deyirəm, dəyişib uşaq kimi olmasanız, səmavi Padşahlığa əsla girməyəcəksiniz" [1, s.1296].

İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimdə insan psixologiyası fonunda dualizmin sosial-fəlsəfi təhlilini isə ən mükəmməl bir nümunə olduğunu hesab edirik. Əl-Bəqərə surəsinin 204-cü ayəsində deyilir: "(Ya Məhəmməd!). İnsanların eləsi vardır ki, onun dünya həyatı haqqındakı sözləri sənin xoşuna gələr. O, qəlbində olana da (dili ilə ürəyinin bir olmasına) Allahı şahid gətirər. Halbuki, o, düşmənlərin ən qəddarıdır" [2, s.31].

Təhtəlşüur psixologiyasının daha geniş seqmentdə tədqiq olunması isə insan faktorunun daxili və xarici aləmi arasında olan nahamarlıqları tam çılpaqlığı ilə əks etdirdi. Burada isə Freyd yaradıcılığına istinad etməmək qeyri-mümkündür. Belə ki, İd anlamı ilə Eqo (fərdin şüur və özünüdərki) və Super Eqo (əxlaq, sosial normalar) arasında olan ziddiyyətli çəkişmələr həyat tərzimizin ayrılmaz fraqmentar komponentlərindən biridir. Çünki dərk olunmamış bütün psixi proseslərin (qeyri-iradi arzular, şəhvani hiss və ya cinsəl meyllilik, natamamlıq kompleksini özündə ehtiva edən sarsıntılar, iztirablar və s.) mahiyyətinin məhz İd platformasında yerləşməsi hamımıza bəllidir. Amma dahi alimimiz İd platforması üzərindəki təhlillərində iki mühüm nəsnənin heyrətamiz gücünü xüsusilə qeyd etmişdir. Bunlardan birincisi hər bir fərddə mövcud olan cinsəl və ya şəhvani meyllilik (libido), ikincisi isə qüdrətli, tanınmış, böyük sosial-iqtisadi resurslara sahiblənmək arzusudur (burada əsas istiqamət insanın bilavasitə asosial varlıq olaraq təhlilidir). Onu da qeyd etməliyik ki, hər iki nəsnənin konkret bəlli olan sərhədləri mövcud deyil. Bu mövcudsuzluq isə insan hərisliynin, hər şeyin yalnız öz maraqları, istəkləri fonunda bir iqtisadi əmtəə olaraq görmələrinin təməl meyarı olaraq dəyərləndirilməlidir. Bu kontekstdə Eqo və Super Eqo platforması bir çox hallarda İd istəkləri qarşısında tamamilə aciz qalır. Qənaətimizin empirik və praqmatik təsdiqi üçün Epşteyn dosyelərini xatırlamaq kifayətdir. Bütün proseslərin təməl izahı isə zənnimizcə məhz Freydizm fəlsəfəsidir. Yəni daha dəqiq desək, Epşteyn adası hər bir insanın "İd" arzularının gerçəkləşdirə biləcəyi, yemləyə biləcəyi unikal bir məkandır. Bu unikallığın substansiyası isə məhz sərhədsizlikdir (unutmayaq ki, bir çox şəxslər tərəfindən adanın "sərhədsiz gələcəyi" naminə yatırılan milyardlarla

dollarlıq investisiyalar bu yanaşmamızın əyani bir isbatıdır). Hər bir kəsin müxtəlif, çoxçeşidli bir “İd tələbatları”na sahib olduğunun fərqinə varsaq törədilən dəhşətlərin gerçək mahiyyətinə enmək, onu daha dərindən dərk etmək fikrimizcə çox da çətin olmayacaq. Unutmayaq ki, 2024-cü ildə məşhur reper P.Diddinin həyata keçirdiyi və eyzən dünyaya səs salan ziyafət gecələri də Epşteyn formatının kiçik bir prototipidir. Zənnimizcə təhlil etməyə çalışdığımız dəlillər toplusu bizə bəlli olan “İd gündəlikləri”nin kiçik bir parçası, və ya aysberqin görünən tərəfidir. Məhz bu səbəbdən ömrünün əsas hissəsinin “İd”in tələbləri əsasında yaşayan şəxslərin tarix boyu mövcudluğu tam mənada danılmaz bir aksiomdur.

## 2.Əsas hissə

Bu aspektdən dövlət idarəçiliyi, o cümlədən yerli özünüidarəçilik modelində yarana biləcək problem və çatışmazlıqların təhlilini kifayət qədər labüd hesab edirik. Dövlət məmurunun, vəzifəli şəxsin bilavasitə “İd” tərəfindən idarə olunmasının nəticələrini təsəvvür etmək çox da çətin deyil. Bilavasitə çirklənmiş şəxsi məqsəd və mənafe üçün nəzərdə tutulmuş idarəçilik nəsnələri, ədədi silisilə üzrə artan möhtəşəm villalar, sərhədsiz hakimiyyət konyukturası, dünyanın ən hündür yüksəkliklərinin belə həsəd apardığı “təkəbbür zirvəsi”, zənginliyin, var-dövlətin dünyada mövcud olan bütün çeşidlərinə sahiblənmək və digər stixiyaların nəticəsi fəlakət və xaosdan başqa bir şey deyil. Bu yönümdən dövlət və yerli özünüidarəçilik platformasında bunlardan bir neçəsinin fundamental təhlillərini nəzərdən keçirməyi məqsədəuyğun hesab edirk.

### 2.1.Qeyri-leqal idarəetmə

Hüquqi əsası olmayan, qanun çərçivəsində tənzimlənməyən, müəyyən olunmuş səlahiyyət hədlərinin istisnası ilə həyata keçirilən idarəetmə formasıdır. Şəxsi və ya qrup maraqları, hüquqi legitimliyin olmaması, qorxu, senzura və s. xüsusiyyətlər qeyri-leqal idarəetmənin fundamental meyarlarıdır.

Qeyd etmək lazımdır ki, bu təhlil kontekstimizdə tarixi dövrləşmənin ümumi gedişatına müvafiq idarəçilik elminə yönəlik sosial-fəlsəfi baxışlar fərqli bir diferensiallaşmaya malikdir. Bu diferensiallaşma daha çox idarə edən subyektin fərdi psixoloji cizgiləri, həyata keçirilən metod və üsullar, dövlətçilik portfoliosunun polisentrik fəaliyyət mexanizmi və digər metamodellərdən asılıdır. Belə ki, orta əsrlərdə yaşamış böyük italyan mütəfəkkiri Makiavelli idarəçilik platformasında uzunmüddətli hakimiyyət üçün mənəvi-əxlaqi və digər dəyərlərin daha çox manipulyativ istifadəsini, lazım gəldikdə isə istibdad üsulunun da tətbiqini münasib sayırdı. O, “Hökmdar” əsərində yazır: “Hakimiyyəti saxlamaq istəyən hökmdar xeyirxahlıqdan yayınmaq bacarığına malik olmalı və lazım gəldikdə bu bacarıqdan istifadə etməlidir” [3, s.89].

Hakimiyyəti möhkəmləndirmək, rəhbər statusunu qoruyub saxlamaq üçün bütün atılacaq qeyri-insani addımların məqbul olduğunu isbat etməyə çalışan, əsərləri daha çox hakimiyyətin fəaliyyət psixologiyası ilə bağlı olan dahi ABŞ yazarı Robert Qrin də bu mövcud yanaşmaya praqmatik bir mövqe sərgiləmişdir. Müəllif "Hakimiyyətin 48 qanunu" əsərində yazır: "Asılı olmayan vəziyyətinizi saxlamaq üçün çalışın ki, həmişə lazımlı olasınız. Sizə nə qədər çox bel bağlayırlarsa, bir o qədər çox azadlıq əldə edirsiniz. Başqa adamların xoşbəxtliyinin və çiçəklənmisinin sizdən asılı olmasına nail olun-və siz heç nədən ehtiyatlanmaya bilərsiniz. Onlara heç vaxt hər şeyi öyrətməyin, belə ki, onlar öz qüvvələri ilə keçinə bilməsinlər" [4, s.66].

Bu formatda olan nümunələrin sayını kifayət qədər artırmaq mümkündür. Etiraf edək ki, Makiavellinin yanaşması ilə Robert Qrin dühası arasında bənzəyişlər çoxdur. Hər ikisinin idarəçilik fəlsəfəsi aşağıdakı ümumiləşdirilmiş elementləri əhatə edir:

✓ Hakimiyyəti nəyin bahasına olursa-olsun maksimum müddətə əldə saxlamaq istəyi. Artıq qeyd etdiyimiz kimi hər bir insan təhtəlşüurunun "İd" təbəqəsində qeyri-müəyyən sərhədlərə malik idarə etmək, hökm vermək, həmçinin xüsusi imtiyazlara malik şəxs olmaq arzusu olan "rəhbər" obrazı mövcuddur.

✓ Mənəvi-əxlaqi və digər dəyərlərə subkateqoriya münasibəti bəsləmək. Ehtiyac olduqda isə bunların tamamilə istisnası fonunda fəaliyyət sərgiləmək.

✓ İdarə etdiyi platformanı mümkün qədər özündən asılı vəziyyətdə saxlamaqla "spesifik dəyər və ehtiyac" məfkurəsini yaratmaq.

✓ Mənəvi-əxlaqi, sosial-psixoloji və digər təməllərdən irfani deyil, məhz öz hakimiyyətinin möhkəmləndirilməsinə əsaslanmış manipulyativ elementli ehkamlar formalaşdırmaq.

✓ Qərar qəbullarında, idarəçilik qənaətlərində, kadr seçimlərinin müəyyənləşdirilməsində xalqı, milləti deyil, başlıcası öz reputasiyasına olan uyğunluğu əsas götürmək.

✓ İdarəçilik prinsiplərinin tətbiq nəticələrinin ölkə vətəndaşının, millətin, xalqın rifahına, xoşbəxtliyinə deyil, bilavasitə özündən mümkün qədər asılı vəziyyətə salmağa yönləndirmək. Çünki asılılıq vəziyyəti rəhbər şəxsin uzunmüddətli hakimiyyəti, ölkədə hər hansı bir qanunsuzluq, insan hüquq və azadlıqlarının pozulması fonunda barışmaz mövqe sərgiləyən kütlələrin məhdud fəaliyyəti üçün mükəmməl bir tablodur.

Bu seqmental yanaşma üzərində qurulan dövlət və ya yerli özünüidarəçilik hakimiyyəti qənaətimizcə çox böyük bir asanlıqla despotizmə, avtoritar hakimiyyətə, monarxiyaya və digər xüsuslara gətirib çıxarır. Qənaətimizin epiloq səhnələrində isə nələr olacağını təsəvvür etmək çox da çətin deyil. Ən azından qiyam, inqilab, dövlət çevrilişləri, kütlə narazılıqlarının genişlənməsi, genosid və digər elementləri nəzərdə tuturuq. Amma bütün hallarda idarəetmə

platformasını bu cür analitik təhlil edən mütəfəkkirlərə (ən azından istinad kimi yanaşdığımız nəhəngləri- Makiavelli və Robert Qrini nəzərdə tuturuq) olan heyranlığımızı gizlətməyə bilmərik. Çünki inkişaf etmiş, inkişaf etməkdə olan əksər ölkələrin dövlətçilik tarixində məhz bu idarəçilik üslubunun səciyyəvi elementləri birmənalı şəkildə mövcud olmuşdur. Hərçənd ki, bu tip idarəçilik nəticələrinin qədim dövrlərdən tutmuş çağdaş günümüzədək olan praqmatik (emprik) yekunları hamımıza bəlli olsa da, bu səciyyəviliyi haliyədə belə bir çox dünya dövlətlərinin xarici və daxili siyasətlərində sezmək mümkündür.

Qeyri-leqal idarəetmə kontekstində kölgə idarəçiliyi anlamının təhlilini də zəruri hesab edirik. Çünki kölgə idarəçiliyi nəinki yerli özünüidarəçilik, ümumilikdə dövlət idarəçiliyi, siyasi-iqtisadi institutlar, hətta elmi-tədqiqat platformasında belə manipulyativ cizgilərə malikdir. Nəhayətdə bu ibarə polisentrik effektləri əhatə edən təsir imkanlarının mücəssəməsidir və aşağıdakı müddəaları əhatə edir:

- ✓ Kölgə idarəçiliyi mövcud fəaliyyət istiqamətində hər hansı bir səlahiyyəti olmayan şəxslərin (fiziki, hüquqi şəxslər və s.) dolayı, o cümlədən qeyri-rəsmi təsir göstərmə imkanlarını xarakterizə edir. Yəni nominal olaraq yerli özünüidarəçilik strukturunun vəzifəli şəxslərinin qərarlarını dominant potensiala malik güclər verir.
- ✓ Nüfuzlu biznes qrupları və iş adamları, siyasi fiqurlar, əhatəli təsir rıçaqlarına malik təşkilat və mərkəzlər, qeyri-rəsmi vasitəçi fiqurlar kölgə idarəçiliyinin əsas substratlarıdır.
- ✓ Qərarların diktə olunması, çirkli pulların yuyulması, şəxsi mənafenin əsas götürülməsi, qeyri-şəffaflıq, ədalət prinsiplərinin pozulması dinamikası kölgə idarəçiliyinin əsas obyekt və predmetidir.
- ✓ Etimad və inkişafı ləngitməklə idarəçilik elementlərinə antidemokratik, antihumanist ideyalar bəxş edir.

## 2.2.Korrupsiya

Vəzifə statusu və səlahiyyətlərinə malik fiziki və hüquqi şəxslərin qanunsuz, qeyri-legitim yollarla maddi xarakterli nemətlər əldə etməsi, müxtəlif təyinatlı imtiyaz və güzəştlərə yiyələnməsidir. Vəzifədən sui-istifadə etmək, imtiyazlar, rüşvət, qanunsuz qazanc və gəlirlər korrupsiyanın əsas xüsusiyyətlərindən sayılır. “Homo sapiens” tarixinin əksər dönəmlərində müxtəlif formalarda mövcud olmuşdur. Ümumdünya formatında isə cinayətin ən mükəmməl və akademik versiyalarından biridir. Korrupsiya anlamının diskursiv nəticələrini də aşağıdakı qaydada ümumiləşdirmək mümkündür:

- ✓ Zənnimizcə korrupsiya anlayışı təhtəlşüur və insan xarakterinin spesifik cizgilərindən biridir (xüsusən Freydizm fəlsəfəsini nəzərdə tuturuq). Çünki daha böyük hakimiyyət imkanı və resurslara sahib olmaqla “özünütəsdiq” imkanlarını genişləndirmək insan psixologiyasının şüuraltı nəsnələrini əhatə

edən fundamental ehkamlardan biridir ("İd" təbəqəsini yada salaq). Unutmayaq ki, heç bir elmi-tədqiqat, bədii, publisistik və digər platformalarda zənginliyin, var-dövlətin konkret sərhədləri göstərilməyib. Daha dəqiqliklə desək, bu sərhədlərin ümumiyyətlə mövcud olmadığını düşünürük. Sərhədsizlik isə bizə daha konkret paradiqmaları təqdim edir: sərhədsiz var-dövlət, sərhədsiz zənginlik, sərhədsiz şan-şöhrət, sərhədsiz idarəçilik və s. Dilimizdə frazeoloji birləşmə olaraq mövcud olan "gözün doymaması" ifadəsinin gerçək izahlarından biri də məhz bu mənbədən qidalanır. Bu aspektdən neofreydizm və freydomarksizmin yaradıcılarından biri sayılan dünya şöhrətli psixoloq Erix Fromm söyləmişdir: "*Bazar xarakterinə malik olan insan hər şeyi əmtəə kimi qəbul edir, təkcə şeyləri yox, şəxsiyyətin özünü də, onun fiziki enerjisini, vərdişlərini, biliyini, rəylərini, hisslərini, hətta gülüşünü də əmtəə kimi qəbul edir. Həmin adamın əsas məqsədi-hər cür situasiyada fayda götürmək, xeyirli iş görməkdir*" [5, s.408].

2025-ci ildə Albaniyada antikorrupsiya, həmçinin şəffaflıq meyarında dövlət satınalmalarına nəzarət məqsədilə yaradılan, dünyanın ilk süni intelekt naziri kimi tarixə düşən Diellanın fəaliyyət mexanizminin izahı məhz bu fonda yuxarıda təhlil etməyə çalışdığımız qənaətlərimiz üzərində qurulmuşdur. (unutmayaq ki, süni intelektin mövcudluğunun özülü məhz insan faktorudur). Ölkə siyasətinin korrupsiyaya qarşı mübarizə seqmentində fəaliyyət göstərən Diella xanım, sən demə həm də peşəkar bir "kriptovalyuta mütəxəssisi" imiş.

✓ Korrupsiya anlayışı bilməyərəkdən (o cümlədən hiss və emosiyalara qapılaraq, hər hansı bir frustrasiya vəziyyəti və s.) törədilən bir anlayış deyil. Bu anlam kifayət qədər anlaşıqlı, mərhələli, düşünülmüş bir strateji gedişatları özündə ehtiva edir. Bilməyərəkdən korrupsiyaya bulaşma bu baxımdan bir qayda olaraq sporadik (zəif sezilən) hal kimi nəzərdən keçirilir. Bu kontekstdən bütün tarixi dövrlər ərzində sərt antikorrupsiya tədbirləri həmişə mövcud olmuşdur. Nümunə olaraq İran şahı Kambizin idarəçiliyini göstərmək mümkündür. Belə ki, rüşvətxorluğu sübut edimiş məmurun cəzalandırlıması mütləq qaydada ictimaiyyət qarşısında olmalıydı. Bu zaman izdiham qarşısında həmin məmurun dərisi soyulur və soyulmuş dəri onun istifadə etdiyi oturacağın (müasir anlamda kreslonun) üzərinə büsbütün çəkilirdi. Dərisi soyulmuş məmurun vəzifəsinə yeni təyin olunmuş məmura isə bu oturacaq xidməti istifadə üçün dövlət tərəfindən bir " bəxşiş" kimi verilirdi. Xidməti vəzifələrinin icrasında başqa bir oturacaqdan istifadə etmək isə həmin məmur üçün qəti qadağan idi.

Çağdaş dünyada bir çox inkişaf etmiş, inkişaf etməkdə olan dövlətlərin dövlətlərin qanunvericilik sistemində də bu kateqoriyalı sərt cəzalar (edam, güllələnmə və s.) mövcuddur. Misal olaraq Çinin dövlət idarəçiliyini göstərmək mümkündür. Belə ki, dövlət siyasətinə böyük zərər vuran, iri məbləğləri əhatə edən korrupsiyanın cəzası güllələnmə və öldürücü

inyeksiyadır. Zənnimizcə bu dövlətin iqtisadi, siyasi və digər platformalarda uğur sirlərindən biri də məhz sərt hüquqi cəzalandırma mexanizminin mövcudluğudur.

**2.3.Xidməti vəzifələrin icrasına məsuliyyətsiz yanaşma**

Kifayət qədər çoxvektorlu bir ekvivalensiya (məzmunlu və məntiqi nəticə) sayılır. Paralel olaraq təhlil etməyə çalışdığımız digər təsnifati qruplaşmaları da özündə ehtiva edir. Bu aspektdən vəzifəyə namizəd kadrlar mütləq qaydada həmin funksional vəzifə səlahiyyətlərinin, öhdəliklərinin təməl meyarlarına cavab verməli, bu səpkidə seçim standartlarına uyğunlaşdırılmalıdır. Unutmayaq ki, kadr islahatlarına, seçimlərinə məsuliyyətli yanaşmanın həyata keçirilməsi müvəffəqiyyətli fəaliyyət ehtimalının əsas müqəddimələrindən biridir. Hətta normal insani dəyərləndirmələrdə belə bu yanaşmalar zəruridir və təkcə vəzifə kontekstində ölçülməməlidir. Belə ki, İslam dünyasının qurucusu olan Məhəmməd Peyğəmbər (ə) söyləmişdir: “İnsanların çoxlu namaz qılıb oruc tutmalarına, həccə çox getmələrinə, çox səxavətli olmalarına, gecələr çox ağlamalarına fikir verməyin. Onların doğru danışmasına və əmanətdar olmalarına fikir verin” [6, 222].

Bu yönümdən dövlət və yerli özünüidarəçilik strukturunda fəaliyyət göstərən vəzifəli şəxslərin onlara göstərilən etimadı doğrultmaması, səlahiyyət və hüquqlarına səhlənkar yanaşması dövlətin idarəedilməsi platformasında belə ciddi rezonans yaratmaq potensialına malikdir. Çünki yerli özünüidarəçilik modelinin bilavasitə obyekt və predmeti məhz insan tablosudur.

**2.4.Sabotaj xarakterli dezinformasiya**

Yerli özünüidarəçilik strukturunun sistematik fəaliyyətini qəsdən pozmaq, sıradan çıxarmaq, qarışıqlıq yaratmaqla nüfuzdan salmaq, yerli əhali fonunda onların etimadını sarsıtmaq xüsusiyyətlərini özündə birləşdirir. Korrupsiya, kölgə idarəçiliyi, qanunvericilik sistemində olan boşluqlar, vəzifə səlahiyyətlərinin qeyri-səlis icrası və digər neqativ fonlarda təmərküzləşir. Təməl xüsusiyyətləri aşağıdakılardır:

✓ Qəsdən törədilmə, çirkin məqsəd və niyyətlər, məkrli yanaşma kimi elementləri özündə birləşdirir. Məhz buna görə sabotajın informasiya, idarəetmə, iqtisadi, sosial, siyasi və digər növləri mövcuddur.

✓ Çağımızda informasiya-kommunikasiya texnologiyalarının viral inkişafı kontekstində ən çox yayılan neqativ xarakterli növlərindən biridir. Məhz bu yanaşmaya görə biz yerli özünüidarəçilik modelinin həm meyar, həm də prinsip təsnifatlarında texnoloji inkişaf amillərini qabartmağa çalışmışıq. Mövcud qənaətimiz Erix Fromm aporiyası kontekstində də öz sözünü deyir: “Radio, televiziya, kino və gündəlik qəzetlərdən hamı azad istifadə edə bilər. Amma kütləvi informasiya vasitələri bizi keçmişin və müasir dövrün ən yaxşı ədəbi və musiqi əsərləri ilə tanış etmək əvəzinə, adamların beynini bir az mədəni səviyyəsi olanların öz asudə vaxtının hətta ən cüzi bir hissəsini də sərf

etməyəcəyi, reklam əlavəsinə bənzəyən, ən aşağı səviyyəli, gerçəklikdən uzaq və sadist təxəyyüllə dolu olan cəfəngiyyatla doldurur” [7, 7].

✓ Bəşər tariximizin bütün dövrlərində sabotaj xarakterli dezinformasiya mövcud olmuşdur (yumoristik yanaşmamızın istisnası fonunda unutmayaq ki, Adəm və Həvvanın cənnətdən qovulması da məhz iblisin sabotaj xarakterli dezinformasiyasıdır). Bu təsnifat növü bir çox genosidlərin, çevrilişlərin, müharibə və qətliamların aktiv təşkilatçısıdır. Hətta dövlət idarəçiliyi platformasına da rəsmi şəkildə böyük bir “uğur”la nüfuz edə bilmişdir. Nümunə olaraq XX əsrin ortalarında təşəkkül tapmış Makkartizm siyasətini göstərmək mümkündür. Sübutu olmayan əsassız ittihamlar, yalan, həmçinin müxtəlif çeşidli iftiralara bürünmüş qənaətlər və nəhayətdə qorxu idarəçiliyinin püxtələşməsi. Nasist Almaniyasının təbliğat və ictimai maarifləndirmə naziri Yozef Gebbels isə mövcud qənaətimizi daha da konkretləşdirib: “*Yalanları tez-tez və yüksək səslə desən, inanacaqlar*” [8, 201].

✓ Sabotaj xarakterli dezinformasiyanın ən geniş yayıldığı məkan kütləvi informasiya vasitələridir. Belə ki, Britaniya konservatizminin yaradıcılarından sayılan filosof Edmund Börk kütləvi informasiya vasitələrini (daha dəqiq desək mətbuatı) dövlət idarəçiliyi kontekstində “dördüncü silk” qismində xarakterizə olunmasını zəruri hesab edirdi. Müasir dünyada isə bu platforma müxtəlif məzmunlu informasiyanı ictimaiyyətə böyük bir operativliklə çatdıran radio, televiziya, mətbu nəşrlər, elektron və rəqəmsal informasiya agentlikləri, internet resurslarını əhatə edir. Bu əhatəlilik həmdə onun nəhəng potensial gücü hesab olunmalı və dəyərləndirilməlidir. Azərbaycan milli mətbuatının banisi, görkəmli mütəfəkkirimiz Həsən bəy Zərdabi də kütləvi informasiya vasitələrinin mühümlüyünü özünəməxsus tərzdə qeyd etmişdir: “Hər kəsi çağırıram-gəlmir, göstərirəm görmür, deyirəm-qanmır...belədə qəzet çıxarmaqdan savayı bir qeyri-çarə yoxdur” [9, s.106].

Məhz belə bir təhlil kontekstimizdə dövlət və ya yerli özünüidarəçilik strukturunda sabotaj xarakterli dezinformasiyanın kütləvi informasiya vasitələrində yayılmasının yarada biləcəyi gerçək təhlükələri təsəvvür etmək çox da çətin deyil. Bu təhlükə cəmiyyətdə mövcud olan dayaz düşüncəli insanlar, bisavad, primitiv təfəkkürə malik cahil insanların reaksiyaları, komment və davranışları fonunda isə daha da mürəkkəb ehkamlı elementlərə malikdir.

**3.Nəticə**

Nəhayətdə təhlil etməyə çalışdığımız müddəaların ümumiləşdirilmiş yekun nəticələri aşağıdakı kimidir:

İnsanın sosial-psixoloji bir fərd olaraq hiss və düşüncələrinin, koqnitiv təfəkkür elementlərinin tədqiqi bütün tarixi dövrlərdə səciyyəvi xüsusiyyətə malik nəsnələrdən biri olmuşdur. Bir çox filosof və mütəfəkkirlər belə

(Konfutsi, Budda və s.) bu səciyyəviliyin mürəkkəbliyini aşkar şəkildə qeyd etməkdən çəkinməmişlər.

Təhtəlşüur modelinin tədqiqi istiqamətində aparılan araşdırmalar fərdin özünəməxsus psixologiyası formatında olan dual nəticələri (yaxşılıq və pislik, mərhəmət və qəddarlıq və s.) daha geniş spektrdə təqdim etməyi bacardı. Mövcud kontekst formatında psixologiya elminin öncül simalarından biri olan Ziqmund Freyd yaradıcılığı fonunda apardığımız kiçicik araşdırmalar əyani bir isbatdır. Onu da qeyd etməliyik ki, Freydizmin insan metamodelinə asosial bir varlıq kimi yanaşması bir çox mütəfəkkirlər (hətta öz tələbələri də daxil) tərəfindən tənqid edilmişdir. Çünki asosiallıq anlayışı nəticə olaraq daha çox patoloji düyünlərin çözülməsində istifadə olunur.

İd təbəqəsi insan şəxsiyyətinin başlanğıc, ilkin bir sistemi olaraq qəbul olunmuşdur. Bu təbəqə insanın arzu, istək və ehtiraslarını, o cümlədən natamamlıq kompleksinin yaratdığı iztirab və sarsıntının çapıqlarını ehtiva edir. Qüdrətli olmaq meylliliyi və şəhvanilik xüsusları isə İd təbəqənin əsas mahiyyətlərindən hesab olunur. Supereqo mövcud sosial-əxlaqi normalar, mədəni-etik ehkamları əhatə edir. Eqo təbəqəsi isə İd və Supereqo arasında vasitəçi olmaqla fərdin özünüdərk (bəzi tədqiqat ədəbiyyatlarında “ikinci mən”, “daxili mən” olaraq analiz olunur) elementlərinin mücəssəməsidir. Hər şey məhz burada formalaşır. Yəni İd və Supereqo arasındakı ziddiyyət və çəkişmələrin epiloqu Eqo təbəqəsində qərarlaşır.

İd təbəqəsi həmişə üstün olmaya, həmçinin arzu və istəklərini, qüdrət və hakimiyyətini gerçəkləşdirmək üçün israrlıdır. Güclü bir impulsiv enerjiyə sahib olmaqla yanaşı nihilist, mühakiməsiz bir desentralizasiyaya can atır. Azacıq bir fürsəti, sezilməyən kiçik bir boşluqları belə potensial gerçəkliyə çevirə bilir. Məhz buna görə bilavasitə İd təbəqəsinin köləsi olaraq yaşayan insanlar dövlət və yerli özünüidarəçilk platformasındakı rəhbər vəzifələr üçün potensial bir təhlükə mənbəyidir. Sahib olduqları hüquq və vəzifə səlahiyyətləri isə İd təbəqəsinin istəklərini yemləmək üçün mükəmməl bir rupor alətidir. Qeyri-leqal idarəetmə, korrupsiya, özbaşınalıq, istibdad idarəçiliyi və digər neqativ təzahürlər məhz bu qənaətimizin isbatıdır. Bu yönümdən kadr islahatları dəqiq aparılmalı, namizədlərin sosial-psixoloji keyfiyyətləri maksimal dəqiqliklə analiz edilməlidir.

İd təbəqəsi ilə mübarizə aparmaq üçün dövlət və yerli özünüidarəçilik platformasında şəffaf və ədalətli qanunvericilik sistemi, individual yanaşma platformasında isə Supereqo təbəqəsinin kifayət qədər güclü olması ilə müəyyənləşir. Belə ki, istənilən fərdin həyati yaşam tərzinin mənəviyyat zənginliyi, əxlaqi normalarla əhatə olunması, elm və təhsil sisteminin intəhasızlığına bürünməsi onun özünüdərk şüurunun formalaşması üçün mükəmməl bir zəmindir. Yəni Supereqo təbəqəsinin güclü olması dövlət və yerli özünüidarəçilik modelinin müvəffəqiyyətli fəaliyyətinin təməl

substratıdır. Bu kontekstdə sakral kitabların öyüdlərini yenidən xatırlamaq vacibdir. Müqəddəs kitablarımızdan biri olan Zəbur nəğmələrində söylənildiyi kimi:

"Gerçək qurtuluş Allahdan gəlir
Sakitcə Allahı gözləyirəm
Ürəyinizi Alaha açın
İnsan adi bir nəfəsdir" [1, 733].

## 4.ƏDƏBİYYAT


1. (2014). *Müqəddəs kitab (Tövrat, Zəbur, İncil).* New York: Watchtower Bible and Tract Society of New York, Inc, 1772 s.
2. Bünyadov, Z. & Məmmədəliyev, V. (1992). *Qurani-Kərim*. Bakı, 652 s.
3. Qrin, R. (2014). *Hakimiyyətin 48 qanunu*. Bakı: Qanun, 264 s.
4. Makiavelli, N. (2008). *Hökmdar*. Bakı: Qızıl Şərq, 159 s.
5. Şükürov, A. (2008). *Fəlsəfə*. Bakı: Çıraq, 490 s.
6. Ocaq Nejad, Ə. (2014). *Qurani-Kərimdə xitablar* (9-cu cild). Bakı: Zərdabi LTD, 420 s.
7. Fromm, E. (2019). *Sağlam cəmiyyət*. Bakı: Qanun, 368 s.
8. Vivian, C. (2021). *Kütləvi kommunikasiya mediası*. Bakı: TEAS Press, 316 s.
9. Tağıyev, A. (2018). *Fəlsəfə*. Bakı: Mütərcim, 504 s.


## REFERENCES


1. (2014). *The Holy Scripture (Torah, Psalms, Gospel)*. New York: Watchtower Bible and Tract Society of New York, Inc., 1772 p. (in English)
2. Bunyadov, Z. & Mammadaliyev, V. (1992). *The Holy Quran*. Baku, 652 p. (in Azerbaijani)
3. Grin, R. (2014). *The 48 Laws of Power*. Baku: Qanun, 264 p. (in Azerbaijani)
4. Makiavelli, N. (2008). *The Prince*. Baku: Gizil Sherq, 159 p. (in Azerbaijani)
5. Shukurov, A. (2008). *Philosophy*. Baku: Chirag, 490 p. (in Azerbaijani)
6. Ocaq Nejad, A. (2014). *Addresses in the Holy Quran* (Vol. 9). Baku: Zardabi LTD, 420 p. (in Azerbaijani)
7. Fromm, E. (2019). *The Sane Society*. Baku: Qanun, 368 p. (in Azerbaijani)
8. Vivian, C. (2021). *Mass Communication Media*. Baku: TEAS Press, 316 p. (in Azerbaijani)
9. Tagiyev, A. (2018). *Philosophy*. Baku: Mutercim, 504 p. (in Azerbaijani)